AZƏRBAYCAN RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

AZ1022 Bakı, Nəsimi rayonu, M.Mirqasımov küç., 1A www.health.gov.az
Tel.: (+994 12) 598 50 94 Faks: (+994 12) 493 06 95 Elektron ünvan: office@health.gov.az

15.08.2012 № 62

№-zə ____________

# ƏMR

**"Dərmana davamlı vərəm formalarının yayılma səviyyəsinin öyrənilməsi üzrə tədqiqatın aparılması barədə"**

Son illərdə respublikada vərəmə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi nəticəsində xəstəliyin yayılma və ölüm səviyyəsinin azaldılması üzrə, vərəmlə xəstələnmənin strukturunda müsbət dəyişikliklər əldə edilmişdir.

Bununla yanaşı Azərbaycan Respublikasında dərmanlara davamlı formalı vərəmli xəstələrin sayının artması müşahidə olunur.

Qeyd olunanları nəzərə alaraq Ümumdünya Səhiyyə Təşkilatının, QİÇS, Vərəm və Malyariya üzrə Qlobal Fondun texniki və maliyyə dəstəyi ilə dərmanlara davamlı formaların yayılma səviyyəsinin öyrənilməsi məqsədilə

## ƏMR EDİRƏM:

1. 2012-ci ilin sentyabr-dekabr ayları ərzində dərmanlara davamlı vərəm formalarının yayılma səviyyəsinin araşdırılması məqsədilə tədqiqat aparılsın.

2. Respublikanın şəhər və rayonlarının tibb idarə və müəssisələrin rəhbərlərinə tapşırılsın:

2.1. tədqiqatın aparılması üçün məsul şəxslər təyin edilsin və onlar barədə məlumat 1 həftə ərzində Elmi-tədqiqat Ağciyər Xəstəlikləri İnstitutuna bildirilsin;

2.2. tibb müəssisələrinə müraciət etmiş vərəmə şübhəli və vərəmli xəstələrdən 2 bəlğəm nümunəsinin götürülməsi, müvafiq qaydada saxlanılması, müşayiət edici sənədləri düzgün və tam doldurmaqla həftədə iki dəfə Milli Referens laboratoriyasına göndərilməsi təşkil edilsin.

3. Elmi-tədqiqat Ağciyər Xəstəlikləri İnstitutunun direktoru E.Məmmədbəyova tapşırılsın:

3.1. tədqiqatların aparılmasına cəlb olunmuş ftiziatr və tibb işçiləri üçün cari ilin avqust ayı ərzində treninqlərin keçirilməsi təmin edilsin;

3.2. Səhiyyə Nazirliyinin 05.11.2010-cu il tarixli 96 nömrəli əmri ilə müəyyən edilmiş məntəqələrdən həftədə iki dəfə bəlğəm nümunələrini götürərək Milli Referens Laboratoriyasına nəql edilməsi təmin edilsin;

3.3. respublikanın şəhər və rayonlarında tədqiqatla bağlı aparılan işlərə metodiki və əməli köməklik göstərilməsi təmin edilsin;

3.4. tədqiqatın nəticələri barədə məlumat 2012-ci ilin sonunadək Səhiyyə Nazirliyinə təqdim edilsin.

4. Əmrin icrasına nəzarət Tibbi yardımın təşkili şöbəsinin müdiri G.Poladova və Sanitariya-epidemioloji nəzarəti sektorunun müdiri V.Qasımova həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**